# AĞLAMA

*hekayə*



Vəfa Mürsəlqızı

Saat birə az qalırdı. Yarımaçıq nəfəslikdən gələn səslər onu yuxudan oyatdı.

- Mən beş qız adı bilirəm. Birincisi Aygün, ikincisi Səbinə, üçün...

- Eeee mənim adımı demə dəə...

- Pah, Səbinə elə tək sənsən?

Qonşu uşaqlar idi. Yenə qırırdılar bir-birini. Sonra daha bir səs gəldi.

- Ədyallar, ədyallar, ucuz qiymətə yay yorğanları.

Gözlərinə həlməşik kimi sulvaşmış yuxunu qovdu. Bu gün bazar günü idi. İşə getməmişdi. Reflektor surətdə qızını çağırmaq istədi. Sonra yadına düşdü ki, arvadı yenə bir həftədir acıq eləyib dədəsi evinə gedib. Qalxdı, geyindi, eveşik tör-töküntü idi. Aləm qarışmışdı bir-birinə. Bulaşıq qab, yuylmamış paltar, bir sözlə tör-töküntü. Geyinib aşağı düşdü, bir az pendir, bir az kolbasa alıb qayıtdı. Əslində, neçə gün idi yediyi ən yaxşı halda dönər idi. Arabir anasıgildə çörək yeyirdi, amma arvadının yenə acıq eləyib getdiyini deməyə üzü gəlmirdi. Qızı anası tapmışdı onun üçün. Belə hallarda həmişə vaysınırdı ki, "Səni bədbəxt elədim". Yəqin arvadının anası da qızına elə deyirdi. Yola getməyən ər-arvadlar arasında kimin kimi bədbəxt eləməsi problemi həllini tapacaq bir şey deyildi. Hər kəs özünü haqlı bilirdi. Əvvəllər, deyəsən, axı yola gedirdilər. Düzü bütün bu narazılıqların haradan, necə yarandığını unutmuşdu. Arvadı cox dikbaş idi. Ölərdi cavab qaytarmasaydı. Bir də pulgir idi. Nə isə hər nədən idisə yola gedə bilmirdilər. Uşağa görə boşana da bilmirdi. Bəlkə də uşaq bəhanəydi. Yeməyini yeyib kompüterin qarşısına keçdi. İş yoldaşlarından biri çatda idi. Elə belə məzə xatirinə iş yoldaşına yazdı.

- Nədi, ay avara, yenə düşüb qalmısan burda?

Mesajı göndərdi amma birdən onu isti basdı. İş burasında idi ki, mesajı iş yoldaşı Aydının əvəzinə onun çatının altındakı Aynur adlı qadına göndərmişdi. O, üzürxahlıq eləməyə macal tapmamış qadından yaxşı bir tənbeh gəldi. Təbii ki, o saat üzr istədi. Qadın da bir az inciklik göstərəndən sonra onu bağışaldı. Qadının profilində şəkli yox idi. Öz şəklinin əvəzinə orta əsrlərdəki qadınlar kimi geyinmiş, qara saçlı, sirli bir xanım şəkli vardı. Maraqlandı. Qadın psixoloq idi.

Artıq neçə gün idi arvadı və qızı evdə deyildilər. Tənhalıqdan ulamaq istəyirdi. Axşam düşürdü, yenə tənhalıq, qaranlıq, sakitlik... Bəlkə də arvadının deyintisindən daha yaxşı idi bu sakitlik. Amma hərdən elə vəziyyətə düşürdü ki, arvadının səsini, söyüşünü belə lentə yazıb səsləndirmək istəyirdi, təki belə sükut olmasın. Belə anlardan birində psixoloq xanım yadına düşdü. Nə olar-olar deyib yazdı. Bir xeyli vaxtdan sonra cavab gəldi. Danışmağa başladılar. O, axşam bütün dərdlərini danışdı Aynur adlı bu qadına. Sən demə, Aynur ailə qurmayıbmış. Aynur onu həvəslə dinləyirdi. Ona məsləhət lazım deyildi. Sadəcə biri dinləsə də bəs idi. Arvadı qayıtmışdı. Amma artıq onun üçün əhəmiyyətli olan məşğuliyyət var idi. Axşamlar saatlarla Aynurla yazışırdı. Aynura elə alışmışdı ki, artıq həyatını onsuz təsəvvür edə bilmirdi. Hərdən çox, çox qorxurdu. Bəzən də dərin bir təəssüf hissi keçirirdi. Ən ağırı təəssüf hissi idi. Niyə axı Aynur ona əvvəllər rast gəlməmişdi? O gün-gündən Aynura vurulduğunu, onu daha çox sevdiyini hiss edirdi. Və bu sevgidən elə qorxurdu ki, gəl görəsən. Aynur ağıllı idi, savadlı idi, mehriban idi, qabiliyyətli idi, şirindil idi. Onun həyat idealı belə bir qadın idi. O, beləsi ilə ailə qurmalı idi. Sevinc kimisi ilə yox. Yanıb-tökülürdü buna görə. Artıq iki ay idi tanıyırdı Aynuru, sanki illər idi birlikdə idilər. Ancaq bir dəfə də üzünü görməmişdi. Aynur onun təkidinə baxmayaraq, nə şəklini göstərmişdi, nə də görüşməyə razı olmuşdu. Bir dəfə o təkid edəndə Aynur demişdi:

- Ayaz, bəlkə mən çirkinəm. Bəlkə heç məni bəyənməyəcəksən.

Əlbəttə, o uzun-uzadı Aynura başa salmağa çalışdı ki, onun xarici görünüşünün heç bir əhəmiyyəti yoxdur. Əsas olan ürəkdir. Amma özü də anlayırdı ki. Yalan danışır. Məsələn, Aynurun yerinə qonşularının potaboy, quru balığa oxşayan qızı Nəzrin olsa, ürəyi lap qızıl belə ola Nəzrini sevə bilməz. Aynur onun ailəli olduğunu bilirdi. Buna baxmayaraq aralarında dərin və gözəl bir münasibət yaşanırdı. İkisi də buna öncə dostluq adı vermişdilər, sonra ikisi də anlamışdı ki, bu, dostluqdan çox, çox fərqli bir şeydir. Arabir düşünürdü, Aynurun üzünü təsəvvür etmək istəyirdi. Nədənsə Aynuru profil şəklindəki kimi qara saçlı, klassik geyimdə, qədim zadəgan xanımları kimi təsəvvür edirdi. Və bir gün qarşısına başqa Aynur çıxsa o zaman nə edəcəyini bilmirdi. Hələlik isə ümidsiz bir eşqlə sevirdi, vəssalam.

İki gün idi qızı xəstə idi. Qızdırması düşmürdü. Arvadı bütün günü uşaqla əlləşmişdi. O da narahat idi. Amma neçə saat idi ki, kompüterdən əl çəkə bilmirdi. Sevinc yanından o tərəf bu tərəfə keçdikcə kinli-kinli ona baxırdı. Arada kül eləyirdi ona. Axşama doğru qızın hərarəti lap yüksəldi. Sevinc ona yaxınlaşdı, acıqlı halda dedi:

- Atasan, dur ayağa da, uşaq qızdırmadan yanır, görmürsən? Sən necə adamsan?

Vicdan əzabı çəkdi. Doğrudan da, daha ciddi yanaşmalı idi qızına deyəsən. Amma o qızını sevirdi. Sadəcə vəziyyətin belə ciddi olacağını düşünmürdü. Birdə o qızını ata kimi sevirdi. Bu isə fərqli şeylər idi. Həkim çağırmalı oldular. Arvadı həmişə uşağı yaxınlıqdakı poliklinikaya aparırdı. Orda uşaq həkimi vardı. Qonşuluqda yaşayırdı. Həmin həkimi çağırdılar. Bir azdan həkim gəldi. Cavan bir qız idi. Uca boylu, qara saçlı, azca dolu bədənli idi. Qız uşağı müayinə etdi. Nəsə yazdı. İynə vurmaq lazım idi. Bütün bu vaxt ərzində o Aynuru gözləyirdi. Aynurla bu gün danışmamışdı. O, çox nigaran idi. Arvadı gəlib acıqlı halda başının üstündə durdu.

- Bəlkə tərpənəsən? Dur aptekə get, iynə lazımdır. Vallah, səndəki arxayınlığa mat qalmışam.

Tələsik qalxıb geyindi, evdən çıxdı. Yolun yarısında yadına düşdü ki, facebook səhifəsini bağlamayıb. Amma daha gec idi.

O evə dönəndə həkim onun kreslosunda əyləşib resept yazırdı. Qorxa-qorxa çata boylandı yazışma açıq idi. Amma xoşbəxtlikdən Aynur heç nə yazmamışdı. Ümumiyyətlə, yox idi orada. Bir azdan həkim getdi. Qızının qızdırması düşdü. Arvadı da yatdı deyəsən. Keçdi kompüterin arxasına. Nəhayət ki, Aynurun yaşıl işığı yanırdı. Bu işığı görəndə balaca uşaq kimi sevinirdi. Əlləri əsirdi, ayaqları yerdən kəsilirdi. Yəqin sevgi belə olurmuş. Aynur yaman kefsiz idi bu gün. Suallarına qısa, konkret cavablar verirdi. Çox təkid etdi. Nə olduğunu bilməyə çalışdı. Amma Aynur sadəcə yorğun olduğunu dedi. Söz arası dedi:

- Gülüm, mən səni görmək istəyirəm axı. Nə vaxta kimi belə davam edəcək?

Aynurdan xeyli vaxt səs-səmir çıxmadı. Sonra onun heç gözləmədiyi bir cavab gəldi.

- Gəl sabah görüşək, Ayaz.

Neçə vaxt idi o yalvarırdı, təkid edirdi, az qala sürünürdü. İndi birçə kəlmədən sonra onunla görüşməyə razı olurdu Aynur. Sahil bağında yer təyin etdilər. Aynur ona telefon nömrəsini verdi.

Sonra da zarafatca dedi ki:

- Gedim yatım, sabah meymuna oxşamayım.

Aynur getdi.

Deyəsən arvadı oyaq idi hələ. Köks ötürürdü. Qaranlıqda onun yatmadığını hiss edirdi.

- Ay qız, mənim sabaha ütülü şalvarım var? Sabah işim var bir az. Gedəsi yerim var.

- Cəhənnəm ol. Get bayaqdan bəri orda məzələndiklərin sənə paltar da ütüləsin.

- Səndən adam olmadı da...

Sabahı gün görüş saatını sanki iplə çəkirdi. Ürəyi partlamaq dərəcəsində idi. Evdə, eşikdə qərar tuta bilmirdi, çox darıxırdı. Bir iki dəfə Aynurun verdiyi nömrəni yığdı. Telefon bağlı idi. Nəhayət gözlədiyi vaxt gəlib çatdı. Dəniz kənarı parkda Aynurun dediyi yerdə durmuşdu. Ayaqları əsirdi. Dəniz tərəfdən vuran sərin meh tərli bədənini buza döndərirdi. Arxadan kimsə çağırdı. Geri çevrildi. Qarşısında cox hündür boylu, qara saçlı, idman geyimli bir oğlan dayanmışdı. Qanı qaraldı.

- Eşidirəm qardaş.

- Salam, siz Ayazsınız?

- Bəli. Siz kimsiniz?

Oğlan gülümsündü.

- Mən sizinlə Aynur adı ilə yazışan adamam.

Elə bil başına qaynar su tökdülər. Az qaldı küçənin ortasında yıxılsın. Bu nə demək idi. Deməli, bu qədər zamandır ürəyinin ən məhrəm duyğularını bu boyu 180 smlik kişiyə açırmış? Xəcalət təri dabanlarına qədər süzüldü. Oğlan sakitcə onun qolundan yapışdı.

- Qulaq as, bir işdir oldu. Əlim dinc durmadı, yazdım. Unut getsin. Bax ətrafda nə qədər polis var, istəyirsən dalaşaq ikimizi də götürüb aparsınlar bölməyə? İkimiz də biabır olaq?

Skamyaya çökdü. Key kimi oturmuşdu. Tərpənməyə taqəti yox idi. Qeyri-ixtiyarı gözündən bir neçə damla yaş gəldi. Evinə gedirdi. Ondan xeyli aralıda bir oğlan və bir qız oturmuşdu. Qız başını oğlanın sinəsində gizlətmişdi. Oğlanın arxası ona tərəfə idi. O diqqətlə baxsaydı bayaq ona yaxınlaşan oğlanı tanıyardı. Sadəcə oğlan bayaq əyninə geydiyi ağımtıl idman gödəkcəsini çıxarıb skamyanın üstünə qoymuşdu. Qız isə o gün onlara gələn həkim idi. Qızının qızdırması qalxanda gələn. Ayaz onlara fikir verəcək halda deyildi. Fikir versə belə çox uzaqda oturmuşdular və oğlanın qızın göz yaşlarını silə-silə astaca pıçıldayırdı. "Ağlama, Aynur".

